*Azərbaycan Ordusu, Azərbaycan əsgəri bilməlidir ki, ölkəmizin ərazi bütövlüyü nəyin bahasına olursa-olsun, bərpa edilməlidir.*

**Heydər ƏLİYEV**



# AZƏRBAYCAN ORDUSU

AZƏRBAYCAN RESPUBLİKASI MÜDAFİƏ NAZİRLİYİNİN ORQANI

Qəzet 1992-ci il fevralın 11-dən çıxır | 15 aprel 2020-ci il | № 25 (2443) | Qiyməti 30 qəpik

# Prezident İlham Əliyevin təşəbbüsü ilə Türk Şurasının videokonfrans vasitəsilə fövqəladə Zirvə görüşü keçirilib

*Azərbaycan Respublikasının Prezidenti, Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurasının sədri İlham Əliyevin təşəbbüsü ilə aprelin 10-da Türk Şurasının videokonfrans vasitəsilə fövqəladə Zirvə görüşü keçirilib. AZƏRTAC xəbər verir ki, Zirvə görüşü koronavirus pandemiyası ilə mübarizə mövzusuna həsr olunub. Azərbaycan Prezidenti İlham Əliyev Zirvə görüşündə çıxış edib.*



- Hörmətli dövlət və hökumət başçıları.

Hörmətli Ümumdünya Səhiyyə Təşkilatının Baş direktoru.

Əziz dostlar.

Mən sizin hamınızı səmimiyyətlə salamlayıram. Azərbaycanın sədr ölkə kimi irəli sürdüyü Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurasının fövqəladə Zirvə görüşünün keçirilməsi təşəbbüsünü dəstəklədiyiniz üçün təşəkkürümü bildirirəm. Bu təşəbbüsün irəli sürülməsindən bir neçə gün sonra Zirvə görüşünün təşkili göstərir ki, Türk Şurası dostluq və qardaşlıq təməlləri əsasında qurulubdur.

Ümumdünya Səhiyyə Təşkilatının Baş direktoru, doktor Tedros Adhanom Qebreyesusa Zirvə görüşünə qoşulduğuna görə minnətdarlığımı bildirirəm.

Zirvə görüşünün gündəliyi təqdim olunmuşdur. Gündəliklə bağlı hər hansı təklifiniz yoxdursa, işimizə başlaya bilərik.

Hörmətli həmkarlar, bildiyiniz kimi, keçən ilin oktyabrında Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurasının VII Zirvə görüşü Bakıda keçirildi. Azərbaycan bu Zirvə görüşündə sədrliyi öz üzərinə götürdü. Dərhal Azərbaycan sədr ölkə kimi fəaliyyətə başladı. Sədrlik etdiyimiz dövrdə dünyada təşkilatın nüfuzunun daha da artırılması, ölkələrimiz arasında əməkdaşlıq əlaqələrinin daha da möhkəmləndirilməsi istiqamətində səylər göstəririk.

Koronavirus xəstəliyi sərhəd tanımayaraq dünya boyunca yayılmış və faciəvi nəticələrə gətirib çıxarmışdır. Pandemiya səbəbindən ölkələrimizdə və dünyada həyatını itirənlərə rəhmət diləyir, onların yaxınlarına başsağlığı verir və yoluxanların tezliklə şəfa tapmasını arzulayıram.

Türk Şurası dünya miqyasında ilk beynəlxalq təşkilatdır ki, dövlət başçıları səviyyəsində COVID-19 pandemiyasına həsr olunmuş Zirvə görüşünü keçirir. Bu, bizim nümunəvi səviyyədə olan həmrəyliyimizin növbəti bariz təzahürüdür. Bizi birləşdirən ortaq soykök, tarix, mədəniyyət və milli dəyərlər qarşılıqlı səmərəli fəaliyyətimiz üçün mühüm əsasdır.

Koronavirus pandemiyası qlobal təhlükə olduğu üçün qlobal cavab tələb edir. Pandemiyanın ilk günlərindən etibarən bəzi ölkələr və beynəlxalq təşkilatların koronavirus qarşısında çaşqın qalmasının, özünəqapanma yolunu seçməsinin şahidi oluruq. Pandemiyanın dünyanı bürüdüyü indiki şəraitdə dünyanın həmrəyliyə və əməkdaşlığa ehtiyacı vardır.

Azərbaycan koronavirus xəstəliyinin yayılmasının qarşısının alınması üçün çevik və zəruri qabaqlayıcı addımlar atmışdır. Məhdudlaşdırıcı tədbirlər yaranmış şəraitə uyğun aparılmışdır. Mənim Sərəncamımla bu ilin əvvəlində Nazirlər Kabineti yanında Operativ Qərargah yaradılmışdır. Mart ayının 3-dən etibarən ölkə üzrə bütün təhsil müəssisələrində tədris prosesi mərhələli şəkildə aprelin 20-dək dayandırılmışdır. Ölkə ərazisində keçirilməli olan bütün kütləvi tədbirlər təxirə salınmış və ya ləğv edilmişdir. Martın 14-dən etibarən bir sıra sosial təcrid tədbirlərini əhatə edən xüsusi rejim, martın 24-dən isə xüsusi karantin rejimi tətbiq edilmişdir. Ticarət və əyləncə mərkəzlərinin fəaliyyəti dayandırılmış, park və ictimai istirahət yerlərinə insanların girişi qadağan edilmişdir. Şəhərlərarası nəqliyyatın və Bakı Metropoliteninin fəaliyyəti tam dayandırılmışdır. Aprelin 5-dən etibarən ölkədə hərəkət məhdudiyyəti tətbiq olunur. Bir sıra dövlət və özəl qurumların fəaliyyətinə cəlb edilmiş şəxslər istisna olmaqla, bütün digər vətəndaşların yaşayış yerini tərk etməsinə konkret müəyyən olunmuş hallarda və vaxt çərçivəsində SMS icazə sistemi vasitəsilə icazə verilir.

Azərbaycan pandemiyaya qarşı mübarizədə ilk günlərdən Ümumdünya Səhiyyə Təşkilatı ilə səmərəli əməkdaşlıq edir. Biz mart ayının əvvəlində təşkilatın mütəxəssislərini Azərbaycana dəvət etmişik. Qısa müddətdə dəvətimizə cavab verilmişdir. Belə ki, 9-13 mart tarixlərində təşkilatın aparıcı mütəxəssislərindən ibarət heyət ölkəmizdə səfərdə olmuşdur. Onlar ölkəmizdə vəziyyətlə tanış olaraq, görülmüş işlərə müsbət qiymət vermişlər. Ekspert missiyasının hazırladığı hesabatda da öz əksini tapmış tövsiyələr aidiyyəti dövlət qurumları tərəfindən nəzərə alınır.

Ümumdünya Səhiyyə Təşkilatının Baş direktoru, doktor Tedros Adhanom Qebreyesus tərəfindən mart ayının 23-də mənə ünvanlanmış məktubda Azərbaycanda görülmüş işlərə yüksək qiymət verilmişdir. Azərbaycan pandemiyaya qarşı görülmüş tədbirlərə görə nümunəvi ölkə kimi dəyərləndirilmişdir.

Azərbaycan koronavirus pandemiyasına qarşı mübarizədə həm ölkə daxilində, həm də dünyada öz fəal rolunu oynayır. Azərbaycan qlobal həmrəylik nümayiş etdirərək koronavirusa qarşı mübarizədə Ümumdünya Səhiyyə Təşkilatına könüllü maliyyə yardımı ayırmışdır. Mart ayının 13-də Azərbaycan tərəfindən Ümumdünya Səhiyyə Təşkilatının strateji hazırlıq və cavab planı çərçivəsində COVID-19 müraciəti Fonduna könüllü maliyyə yardımının ayrılmasını nəzərdə tutan donor sazişi imzalamışdır. Biz Ümumdünya Səhiyyə Təşkilatının pandemiyaya qarşı qlobal mübarizədə oynadığı mühüm rolu yüksək qiymətləndiririk.

On altı il ərzində Azərbaycanın səhiyyə sistemində köklü işlər görülmüşdür, həkimlərin peşəkarlıq səviyyəsi yüksəlmişdir, 750-dən çox səhiyyə ocağı tikilmiş və ya tam təmir olunmuşdur. Hər il Azərbaycanda 5 milyondan çox insan dövlət hesabına tibbi müayinədən keçir.

Koronavirus xəstələri 20-dən artıq dövlət xəstəxanasında müalicə olunurlar. Bu günlərdə 575 çarpayıdan ibarət olan, ölkəmizin ən müasir və "Yeni klinika" adlanan xəstəxanası onların ixtiyarına verilmişdir. Bu ilin mart ayında ölkəmizin 3 şəhərində üç yeni xəstəxana istifadəyə verilmişdir. Onların ümumi çarpayı sayı 500-dən çoxdur. Bu xəstəxanalar da koronavirus xəstələrinin ixtiyarına verilmişdir. Qısa müddət ərzində 6-sı dövlət, 4-ü isə özəl sahibkarlar tərəfindən tikilməklə, hər birinin 200 çarpayı yeri olan 10 müasir modul tipli xəstəxananın istifadəyə verilməsi nəzərdə tutulur.

Həkimlərimizin və tibb işçilərimizin koronavirus xəstəliyinə qarşı mübarizədə xidmətlərini yüksək qiymətləndiririk. Koronavirus xəstələrinə xidmət göstərən həkimlərin maaşı 3, 4 və 5 misli məbləğində artırılıb. Bu, dövlət tərəfindən həkimlərə göstərilən qayğının təzahürüdür.

**(Ardı 2-ci səhifədə)**

# Prezident İlham Əliyevin təşəbbüsü ilə Türk Şurasının videokonfrans vasitəsilə fövqəladə Zirvə görüşü keçirilib

(Əvvəli 1-ci səhifədə)



On beş mindən artıq Azərbaycan vətəndaşı müxtəlif ölkələrdən, o cümlədən dövlət hesabına təşkil olunmuş çarter reysləri vasitəsilə təxliyə edilmişdir. Ölkəyə qaytarılmış bütün vətəndaşlarımız dövlət hesabına 4 və 5 ulduzlu mehmanxanalarda, xüsusi karantin zonalarında yerləşdirilmişdir. Eyni zamanda, birinci Avropa Oyunları zamanı açılmış Atletlər kəndində də karantinə alınmış şəxslər yerləşdirilir.

Beynəlxalq ticarət daşımaları istisna olmaqla, qarşılıqlı anlaşma və əlaqələndirmə şəraitində qonşu dövlətlərlə yerüstü və hava nəqliyyatı bağlantıları müvəqqəti olaraq dayandırılmışdır. Digər ölkələrlə beynəlxalq hava sərnişin daşımaları da dayandırılmışdır.

İndiyə kimi ölkə üzrə 60 minə yaxın test keçirilmişdir. Əhalinin hər bir milyon nəfərinə düşən testin sayı 5200-dən artıqdır. Aparılan testlərin sayına görə dünyada 30-cu, hər milyon əhaliyə görə aparılan testlərin sayına görə 40-cı yerlərdəyik. Azərbaycanda testlərin aparılması üçün 18 laboratoriya fəaliyyət göstərir, onların 5-i yeni yaradılmışdır.

Hazırda dünyada tibbi ləvazimatların və avadanlıqların alınması probleme çevrilmişdir. İstehsal olunan avadanlıqlar və ləvazimatların satılması dövlətlər tərəfindən məhdudlaşdırılmışdır. Ona görə də daxili istehsal ehtiyacı yaranmışdır. Daxili tələbatı ödəmək üçün aprel ayının əvvəlində ölkəmizdə operativ şəkildə tibbi maska istehsalı müəssisəsi fəaliyyətə başlamışdır.

Mənim təşəbbüsümlə Azərbaycanda Koronavirusla Mübarizəyə Dəstək Fondu təsis edilmişdir. Hazırda bu fonda köçürülmüş ianələrin həcmi 110 milyon manatdan və ya 65 milyon dollardan artıqdır. Dövlət vəsaiti ilə bərabər, ayrı-ayrı şəxslərin, sahibkarların və təşkilatların fonda könüllü ianəsi həm də böyük rəmzi məna daşıyır. Bu, Azərbaycan cəmiyyətində olan həmrəyliyin nümunəsidir.

Sirr deyil ki, koronavirus pandemiyası dünya ölkələrinin iqtisadiyyatına zərbə vurmuşdur. Azərbaycanda iqtisadi sabitliyi təmin etmək, məşğulluqla bağlı problemləri həll etmək və həm də makroiqtisadi və maliyyə vəziyyətimizi sabit saxlamaq üçün 2,5 milyard manat və ya təqribən 1,5 milyard dollar vəsait ayrılmışdır. Pandemiyanın ölkə iqtisadiyyatına, makroiqtisadi sabitliyə, məşğulluq məsələlərinə və sahibkarlıq subyektlərinə mənfi təsirinin azaldılması məqsədilə Nazirlər Kabineti Tədbirlər Planı hazırlamış və təsdiq etmişdir. Əgər biz koronavirusun ən çox təsir etdiyi sahələri və fərdi sahibkarlıqla məşğul olan insanları nəzərə alsaq, görərik ki, 600 minə yaxın insan bu vəziyyətdən daha çox əziyyət çəkir. Sahibkarlara müraciət olunmuşdur ki, iş yerləri ixtisar edilməsin. Qırx dörd min sahibkarlıq subyektində çalışan 300 mindən çox işçinin əməkhaqqının əhəmiyyətli bir hissəsini dövlət ödəyəcək. Həmçinin dövlət dəstəyindən 290 mindən çox mikro və fərdi sahibkar faydalanacaqdır. Bu proqramlar, ümumilikdə, 600 minə yaxın insanı əhatə edir. Ümumilikdə, dövlət sektoru üzrə 900 mindən artıq işçinin, qeyri-dövlət sektoru üzrə isə 690 min işçinin əməkhaqqı saxlanmaqla məşğulluğu təmin edilmişdir. İşsiz şəxslərin sosial müdafiəsi üçün 50 min ödənişli ictimai iş yeri yaradılacaqdır. Qeydiyyata düşmüş işsizlər üçün birdəfəlik ödəmələrə başlanmışdır. Banklar tərəfindən sahibkarlara yeni verilən 500 milyon manat və ya təqribən 300 milyon dollar həcmində kreditlərin 60 faizinə dövlət zəmanəti veriləcəkdir. Zəmanət verilən kreditlər üzrə faiz dərəcəsinin yarısı dövlət büdcəsinin vəsaitləri hesabına subsidiyalaşdırılacaqdır. Dövlət zəmanəti olmayan 1 milyard manat, təqribən 600 milyon dollar həcmində mövcud bank kreditləri üzrə faiz dərəcəsinin 10 faiz bəndi subsidiyalaşdırılacaqdır. Bunun üçün dövlət büdcəsindən 50 milyon manat və ya təqribən 30 milyon dollar vəsait ayrılmışdır. Bu tədbirin əsas məqsədi pandemiya səbəbindən faizlərin ödənilməsində çətinliklərlə üzləşmiş sahibkarlara kömək etməkdir. Sosial təcrid tədbirləri nəticəsində əhali tərəfindən elektrik enerjisi sərfi artmışdır. Bunu nəzərə alaraq kommunal ödəmələrə güzəşt edilmişdir. Bu proqramlar dövlətin dəstəyinin yalnız bir hissəsidir və digər dövlət dəstəyi mexanizmləri üzərində hazırda iş aparılır.

Hörmətli dostlar, hesab edirəm ki, bugünkü fövqəladə Zirvə görüşünün əsas məqsədi milli səviyyədə atdığımız addımlara dair təcrübə mübadiləsinin aparılması, lazım olan anda bir-birimizə dəstək göstərilməsi və xalqlarımız arasında həmrəyliyin möhkəmləndirilməsidir. Mövcud qlobal pandemiya şəraitində Türk Şurasının üzv dövlətləri özlərinə qapanmayıblar. Təşkilat olaraq Türk Şurası digər beynəlxalq təşkilatlarla əməkdaşlığa hazırdır. Azərbaycan ayrı-ayrı ölkələrə də öz dəstəyini göstərməkdədir.

Ölkələrimizin iqtisadiyyatı, ticarət münasibətlərimiz və idxal-ixrac əməliyyatları üçün nəqliyyat daşımaları mühüm əhəmiyyətə malikdir. Azərbaycan Türkiyə və Mərkəzi Asiya arasında etibarlı tranzit-logistika mərkəzi kimi öz roluna məsuliyyətlə yanaşaraq, tranzit yüklərin daşınması üçün əlavə tədbirlər görmüşdür. Qarşılıqlı anlaşma və əlaqələndirmə şəraitində ölkələrimiz arasında beynəlxalq yükdaşımaları fasiləsiz olaraq həyata keçirilir. Pandemiyanın mənfi təsirlərinə baxmayaraq, 2020-ci ilin ilk üç ayı ərzində türkdilli ölkələrdən 180 min tondan artıq yük Azərbaycan vasitəsilə daşınmışdır ki, bu da ötən ilin eyni dövrü ilə müqayisədə 40 min ton çoxdur.

Səhiyyə xidmətləri sahəsində əməkdaşlığımız, o cümlədən tibb mütəxəssislərinin təcrübə mübadiləsi, birgə tibbi komissiyaların yaradılması üçün yaxşı imkanlar vardır. Bundan əlavə, sərnişin nəqliyyat daşımalarının müvəqqəti bağlanmasına görə ölkələrimizin ərazisində qalan bir-birimizin vətəndaşlarına dəstək və yardım göstərməyimiz vacibdir. Bizim gördüyümüz bu tədbirlər vətəndaşlarımızın sağlamlığının qorunması və pandemiyanın doğurduğu sosial-iqtisadi fəsadların yüngülləşdirilməsi, iqtisadiyyatlarımızın davamlı inkişafının təmin edilməsi məqsədi daşıyır. Ümid edirəm ki, ölkələrimiz və xalqlarımız bu ağır vəziyyətin öhdəsindən layiqincə gələcək və pandemiyaya qarşı qlobal mübarizəyə öz layiqli töhfəsini verəcəkdir. Diqqətinizə görə təşəkkür edirəm.

## Azərbaycan HHQ-nin nümayəndələri Rusiyanın döyüş təyyarələri istehsal edən müəssisələrində olublar



Azərbaycan Respublikası ilə Rusiya Federasiyası arasında hərbi-texniki əməkdaşlıq çərçivəsində Azərbaycan Hərbi Hava Qüvvələrinin mütəxəssislərindən ibarət heyət Rusiyanın hərbi-sənaye kompleksinə daxil olan müəssisələrdə olublar.

Müdafiə Nazirliyi Mətbuat Xidmətinin məlumatına əsasən, Azərbaycan nümayəndə heyətinin üzvləri Rusiyanın Su-35 və MiQ-35 döyüş təyyarələrini istehsal edən hərbi zavodlarına baş çəkiblər. Rusiyanın qlobal silah bazarının liderlərindən biri olan "Rosoboroneksport" şirkətinin nümayəndələri və hərbi zavodların rəhbərliyi ilə keçirilən görüşlərdə ölkəmizin Rusiya istehsalı olan ən müasir döyüş təyyarələrinin alınmasında maraqlı olduğu bildirilib.

Nümayəndə heyətimizə təyyarələrin taktiki-texniki xüsusiyyətləri, döyüş qabiliyyəti, silahlanması, ümumilikdə, aviasiya vasitələrinin istehsalı, istismarı və onlara texniki xidmət göstərilməsi barədə brifinqlər təqdim olunub.

Rusiya tərəfi öz növbəsində Azərbaycana Hərbi Hava Qüvvələrimizin ehtiyaclarını ödəyəcək sayda döyüş təyyarələrinin təqdim edilməsinə hazır olduqlarını bildiriblər.

Hərbi pilotlarımız Rusiyanın hərbi aviabazalarında MiQ-35 təyyarəsində praktiki uçuşlar yerinə yetirib.

## MiQ-29 və Su-25 təyyarələrinin ekipajları ilə taktiki-uçuş təlimi keçirilib



Müdafiə nazirinin təsdiq etdiyi 2020-ci il üçün döyüş hazırlığı planına əsasən, Hərbi Hava Qüvvələrinin MiQ-29 və Su-25 təyyarələrinin cəlb olunması ilə taktiki-uçuş təlimi keçirilib.

Müdafiə Nazirliyi Mətbuat Xidmətinin məlumatına əsasən, təlim zamanı qarşıq aviasiya qrupları tərəfindən yerüstü hədəflərin məhv edilməsi, hava hədəflərinin ələ keçirilməsi, hava hücumundan müdafiə səddinin aşılması və radioelektron mübarizə vasitələrindən istifadə olunmaqla şərti düşmənin hava hücumunun dəf edilməsi kimi tapşırıqlar məşq etdirilib.

Pilotlar yeni və modernizə olunmuş radioelektron mübarizə vasitələri ilə yaxın, orta və uzaq mənzilli hava hücumundan müdafiə sistemlərinin susdurulması imkanlarını yoxlayıb, eləcə də aviasiya vasitələrinin tətbiqi bacarıqlarını təkmilləşdiriblər.



# HHQ-nin helikopter bölmələri uçuş məşqləri keçirir

Müdafiə nazirinin təsdiq etdiyi döyüş hazırlığı planına əsasən, Hərbi Hava Qüvvələrinin (HHQ) helikopter bölmələri uçuş məşqləri keçirir.

Müdafiə Nazirliyi Mətbuat Xidmətinin məlumatına əsasən, məşqlərin praktiki hissəsində bazalanma aerodromlarından uçuşlar edən helikopterlər poliqonlarda şərti düşmənin yer hədəflərini döyüş atışları ilə məhv edir.

Qarşıya qoyulan tapşırıqlar helikopter ekipajları tərəfindən müvəffəqiyyətlə yerinə yetirilir.

# Motoatıcı bölmələrdə atəş hazırlığı üzrə məşğələlər keçirilir

*Müdafiə nazirinin təsdiq etdiyi 2020-ci il üçün döyüş hazırlığı planına uyğun olaraq, müxtəlif poliqonlarda və müasir avadanlıqla təchiz edilmiş təlim sahələrində atəş hazırlığı üzrə məşğələlər keçirilir.*



Müdafiə Nazirliyi Mətbuat Xidmətinin məlumatına əsasən, hərbi qulluqçular silahların taktiki-texniki xüsusiyyətlərini bilmələri barədə məqbullar verir, onların sökülüb-yığılması üzrə normativləri yerinə yetirir, eləcə də silahla hərəkət bacarıqlarını təkmilləşdirir.

Müxtəlif kateqoriyalardan olan hərbi qulluqçular müvafiq normativlərə uyğun olaraq praktiki təlim atəş çalışmalarını icra edir.

*"N" hərbi hissəsinin düşmənlə təmas xəttində yerləşən bölməsindəyik. Bu ərazilər silsilə dağları ilə seçilir. Qürur yerimiz olan Vətən keşikçilərini tanımağın sevincini yaşamaq üçün enişli-yoxuşlu yollarla dağların zirvəsinə qalxırıq. Dörd yanımız dağlarla, təpələrlə əhatə olunub. Dağların əzəmətli görünüşü kimi maraqlı təbiəti də var. Yaz fəslidir, lakin qar yağır. Ətraf ağappaqdır. Dağların ağ örpəyinə baxdıqca insanın ruhu dincəlir. Ətraf, sağ-sol kəndlərdir, bütün həyatlərdə canlanma var, hər kəs ordumuzun gücünə güvənib, əmin-arxayın doğma ocağında yaşayır...*

*Ön xətdən reportaj*

# Qarlı dağlar, dağ vüqarlı oğullar!



Bu düşüncələrimi bizi müşayiət edən zabit Rəşad Əliyev də təsdiqləyir: “Bu ərazilərdə hər kəs əmindir ki, mövqelərimiz inamla qorunur. Düşmən hər an nəzarətdə saxlanılır. Uzun illərdir ordu sıralarında xidmət edən bir zabit kimi, əminliklə deyə bilərəm ki, bu gün Azərbaycan Ordusu dünyanın ən güclü orduları sırasında öz layiqli yerini tutur. İstər maddi-texniki təminat, istərsə də şəxsi heyətinin vətənpərvərlik hissi, qələbə ruhu baxımından ordumuz düşmən tapdağı altında olan torpaqlarımızı işğaldan azad etməyə, ərazi bütövlüyümüzü bərpa etməyə qadirdir. Keçirilən məqsədyönlü islahatlar, genişmiqyaslı təlimlər onu deməyə əsas verir ki, Azərbaycan əsgərinin döyüş hazırlığı, mənəvi-psixoloji vəziyyəti yüksəkdir. Ali Baş Komandanın diqqət və qayğısı daim bizim üzərimizdədir.”

...Təhlükəli sərt döngələrdən peşəkarlıqla keçən sürücümüz bizi mənzilə çatdırır. Baş çavuş Ramiz Vəliyev postda hər şeyin qaydasında olduğunu bildirir və bizi ərazi ilə tanış edir. Səngərdə irəlilədikcə Ramizlə söhbətləşir, onu daha yaxından tanıyırıq. Seçdiyi peşəyə ürəkdən bağlı olduğunu bildirir. Üz-gözündən məğrurluq duyulan təcrübəli baş çavuş düşmənin mövqeyi barədə məlumat verir. Xidmət etdiyi postun ərazisinə yaxşı bələd olan Ramiz mövqelərimizin ən çox hansı tərəfdən atəşə tutulduğunu deyir. "Cavab atəşi açılan kimi susurlar. Biz bu istiqamətləri xüsusi nəzarətdə saxlayır, fasiləsiz müşahidə aparırıq. Gecə və dumanlı havalarda müşahidəni gücləndiririk. Çünki belə havadan istifadə edərək düşmən mövqelərimizə soxulmağa cəhd edir, intensiv şəkildə atəşkəsi pozaraq təxribata əl atır. Lakin döyüş növbəsi aparan əsgərlərimizin ayıq-sayıqlığı və tutarlı cavab verməsi düşməni yerində oturdur. Biz istənilən vaxt düşmən təxribatının qarşısını almaq gücündəyik və onlara heç zaman məqsədlərinə çatmağa imkan verməyəcəyik. Gec-tez ata-babalarımızın qisasını alıb, doğma yurd-yuvalarımızı işğaldan azad edəcəyik", - baş çavuş Ramiz Vəliyev deyir. Hərbçi peşəsini özünə həyat yolu seçən və bu şərəfli yolda uğurla xidmət aparan baş çavuşu tanıdıqca onun üzərinə düşən məsuliyyətli və müqəddəs vəzifənin öhdəsindən layiqincə gəldiyini hiss edirsən.

Səngər... Neçə-neçə igidlərin oylağı olan bu müqəddəs məkan düşmənə keçilməz qaladır. Əsgərlərin mərdliyi, qorxmazlığı, vətənpərvərliyidir bu qalanı yaradan. Sözləri də duruşları kimi qətiyyətlidir. Hər biri nümunəvidir. Sinələrinə sığmayan Vətən sevgisindən ilham alırlar. Gözlərində düşmənə nifrətdən qaynaqlanan qəzəb görünür. Hər biri mərdliklə xidmət edir, onlara güvənənləri qoruyur... Bu igidlərdən biri əsgər İsmayıl Qaraşov Vətən qoruyucusu olmaqdan qürurlanır. Əsgər İ.Qaraşov səngərdə dayanmağın müqəddəs vəzifə olduğunu bildirərək düşüncələrini bölüşür: "İlk öncə bölməmizdə yaradılan şəraitdən razılığımı və heç bir çətinlik çəkmədən xidmət etdiyimi vurğulamaq istəyirəm. Bizə göstərilən diqqət və qayğı hər birimizin ürəyincədir. Azərbaycan əsgəri adını daşımağımla fəxr edirəm. Bizə tapşırılan mövqelərimizi göz bəbəyi kimi qoruyuruq. Döyüş növbətçiliyi zamanı diqqətimi bir an belə düşmən tərəfdən ayırmıram. Vətənimə olan sonsuz sevgim gücümü və iradəmi artırır. Mehriban kollektivin və qayğıkeş komandirlərimizin olması da xidmətimizi uğurla davam etdirməyə zəmin yaradır. Hamımız tək amala xidmət edirik - Ali Baş Komandanın döyüş əmri ilə torpaqlarımızı işğaldan azad etmək".

Xalq bu müqəddəs amal altında mübarizə aparan ordumuzun bütün mərd oğulları ilə qürur duyur. Bu yolda qəhrəmancasına şəhid olan igidlərini heç zaman unutmur, xatirələrini daim əziz tutur. Güc və qüdrəti ilə bütün dünyaya səs salan Azərbaycan Ordusu ilə hər kəs öyünür. Hər bir vətəndaşımız ordumuza sonsuz güvənir. Bu güvənci qazananlardan biri də əsgər Mustafa Ramazanovdur. Mustafa da nümunəvi əsgərdir. O da düşmən qarşısında inamla dayanaraq gecə-gündüz torpaqlarımıza keşik çəkir. Səngərdə dayanmaqdan qürurlanır və sevinir ki, xidmətini düşmənlə təmas xəttində davam etdirir. "Hərbi xidmət hər gənc üçün vacibdir. Şanslıyam ki, xidmətimi səngərdə keçirmək qismətim olub. Burada bir çox üstün keyfiyyətlər qazandım. Hərbi bilik və bacarıqlar öyrəndim. Çətinlik çəkmədən xidmətimi davam etdirirəm. Səngər həyatının müqəddəs olduğunu hələ xidmətə gəlməzdən əvvəl də bilirdim. Səngər deyiləndə həmişə gözümdə qəhrəmanlıq ocağı, müqəddəs bir yer canlanırdı. Qismətim elə gətirdi ki, mən də səngərdə xidmət etməyin qürurunu, sevincini yaşayan gənclərdən oldum. Arzu edirəm ki, Qarabağda üçrəngli bayrağımızı dalğalandırmağın sevincini yaşamaq nəsibim olsun".

Hər bir azərbaycanlının arzusu sizin kimi mərd oğulların sayəsində reallaşacaq. Aprel döyüşlərində, Günnüt zəfərində düşmənə qan udduran ordumuzun qüdrəti gerçəkləşdirəcək bu arzunu. Həmin döyüşlərdə düşməni ağır məğlubiyyətə uğradan ordumuz göstərdi ki, münaqişə sülh yolu ilə həll olunmasa, bu qələbələrin davamı olacaq. Xalqımıza növbəti qələbə sevincini yaşatmağa daim hazır olan əsgərlərdən biri də Ağalar Abdurrəhmanovdur. Relyef şəraitinin və təbiətin yaratdığı hər hansı bir çətinlik onu xidmətindən yayındırmır. Uğurla xidmətini davam etdirir. İradəli, dözümlü, cəsur əsgərdir. Daim zirvələrdə qıy vuran qartal kimi iti baxışlıdır. Əsgərin məğrurluğunu sözləri də təsdiqləyir. "Çalışıram ki, nümunəvi xidmətimlə seçilim, komandirlərimin etimadını doğruldum. Biz qəhrəman bir xalqın övladlarıyıq. Tarixin bütün səhifələrinə qəhrəman kimi iz qoyan ataların xələfləriyik. Bu gün hər birimiz Raqufların, Mübarizlərin, Samidlərin, Fəridlərin, Rasimlərin, Çingizlərin... davamçılarıyıq. Onların alovlandırdıqları qələbə məşəlini Qarabağa sancmaq üçün döyüş əmri gözləyirik".

Bu igidlərin düşməni məğlub etməyə hər an hazır olduğuna xalqımızın hər bir nümayəndəsi də ürəkdən inanır. Uca zirvələrdə məskunlaşıb, düşmənə sipər olan igidlərin dağlara sığmayan Vətən sevgisi, gücü və iradəsi bu inamı daha da artırır. Əsgərlər Oktay Xəlilov və Fərasət Sultanov da vətənpərvər gənclərdir. Söhbətləşdikcə hiss edirsən ki, digərləri kimi onların da mənəviyyatına Vətən sevgisi kimi ilahi bir qüvvə hakimdir. Bu sevgi onlara tükənməz iradə, mərdlik, igidlik aşılayır. Bir fikri vurğulamaq yerinə düşər ki, insanı qəhrəman olmağa, fədakarlıq göstərməyə ruhlandıran vətənpərvərlikdir. Belə vətənpərvər oğullarımız var olduqca ordumuzun qarşısında heç bir düşmən tab gətirə bilməz. Oktayla Fərasət də bu düşüncədədir. "Ordu həyatı qəhrəmanlıq məktəbidir. Bu məktəbdə keçən günlərimizin dəyəri böyükdür. Burada Vətəni qorumaqla yanaşı, vətənpərvərliyin, Vətən sevgisinin nə olduğunu daha dərindən dərk edirik. Həm bacarıqlı əsgərlər, həm də vətənpərvər gənclər kimi formalaşırıq. Döyüş əmri ilə hər an hücuma keçməyə hazırıq. Düşmənə qalib gələcəyimizə tam inanırıq. Yüksək döyüş hazırlığımız və vətənpərvərlik ruhumuz bunu deməyə əsas verir. Vətənin müdafiəsində dayanan əsgərlər kimi xalqımıza səslənirik - biz buradayıq, düşmənin qarşısında dağ kimi dayanmışıq və tezliklə torpaqlarımızdan əl çəkməyən yağılar bu dağların daşları, qayaları altında qalıb məhv olacaqlar", - əsgərlər deyirlər.

Vətənimizin uca zirvələrində xidmət edən dağ vüqarlı oğullar ilə görüşmək qürurvericidir. Bu görüşdə mərdlik, cəsarət gördük, bizə könül xoşluğu verən Vətən sevgisi gördük. Bu sevgi dağlar kimi əzəmətlidir. Bu dağlar Vətənə sipər olan oğulların vüqarının, qətiyyətinin, gücünün göstəricisidir. Belə igidləri olan ordumuz isə Böyük Qələbəmizin qarantıdır!

**Baş leytenant**
**Mahmud MÖHBALIYEV,**
**"Azərbaycan Ordusu",**
**foto**
**Coşqun CƏFƏROVUNDUR**

AZƏRBAYCAN ORDUSU

*Qələbə - 75*

# Bəşər tarixinin faciəsi - İkinci Dünya müharibəsi

*XX əsrdə bəşəriyyət iki dünya müharibəsi ilə üz-üzə qaldı. İkinci Dünya müharibəsi əhatə dairəsinə, iştirakçı dövlətlərin sayına, müharibənin aparılması metodlarına və vasitələrinə görə birincidən qat-qat dağıdıcı və dəhşətli idi. 1939-1945-ci illəri əhatə edən İkinci Dünya müharibəsi 1939-cu il sentyabrın 1-də nasist Almaniyasının Polşa üzərinə hücumu ilə başladı, 1945-ci il sentyabrın 2-də Yaponiyanın təslim olması ilə başa çatdı.*




İkinci Dünya müharibəsi həm də ona görə fərqləndi ki, müasir beynəlxalq sistem məhz onun nəticələri əsasında formalaşdı. Dünya tarixində bu hadisəyə bir neçə amil səbəb oldu və onların öyrənilməsi müasir dönəm üçün də vacibdir. Çünki o zamanlarda baş verən hadisələrin oxşarını bu gün də müşahidə etmək olar. Müharibənin iştirakçıları iki cəbhəyə bölündü: nasist bloku (əsas iştirakçılar - Almaniya, İtaliya və Yaponiya) və antihitler koalisiyası (əsas iştirakçılar - SSRİ, ABŞ, Britaniya və Fransa). Hər bir ölkəni müharibəyə sürükləyən səbəblərlə yanaşı, artıq Birinci Dünya müharibəsindən sonra yaranan beynəlxalq sistem qüvvələr balansını və real siyasi vəziyyəti əks etdirmədi. Dəyişikliklərə ehtiyac var idi və həmin dəyişikliklər dinc yolla deyil, müharibə yolu ilə reallaşdı. Nəticədə 50-dən çox dövlət antifaşist koalisiyasında birləşdi, dünyanı faşizm taunundan xilas etdi.

Ötən əsrdə bəşəriyyətə sarsıdıcı zərbə vurmuş faşist ideologiyası üzərində qələbənin bu il 75-ci ildönümü tamam olur. Müharibənin başa çatmasından 75 il keçsə də, bütün dünya üçün faciəli fəlakətlər dövrü kimi yadda qalan həmin qanlı-qadalı illər hələ də unudulmur.

İkinci Dünya müharibəsində SSRİ-nin qazandığı qələbədə Azərbaycanın da böyük payı var. Həmin illərdə xalq özünün 600 mindən çox oğul və qızını cəbhəyə yola saldı. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Türkmənistanın paytaxtı Aşqabad şəhərində MDB Dövlət Başçıları Şurasının məhdud tərkibdə iclasında çıxış edərkən azərbaycanlıların İkinci Dünya müharibəsində iştirakını xatırlayaraq deyib. "Ən dağıdıcı, qanlı müharibənin ön və arxa cəbhələrində xalqlarımız gələcək nəsillər üçün nümunə olan qəhrəmanlıq və igidlik göstəriblər. Faşizm üzərində ümumi Qələbəmizə Azərbaycan layiqli töhfə verib. Azərbaycanın 600 mindən çox oğul və qızı Böyük Vətən müharibəsi cəbhələrində döyüşüb, onların yarısı ümumi Qələbəmiz uğrunda canlarından keçib. Müharibə illərində göstərdikləri igidliyə görə Azərbaycanın 130-dan çox nümayəndəsi Sovet İttifaqı Qəhrəmanı adına layiq görülüb, 170 mindən çox əsgər və zabitimiz müxtəlif orden və medallarla təltif edilib. Azərbaycan bütün ölkəni yanacaqla təmin edib. Cəbhə üçün çox zəruri olan neftin 70 faizdən çoxu, benzinin 80 faizi, motor yağlarının 90 faizi Azərbaycanın payına düşürdü. Bunlar olmasaydı, sovet ordusu düşmənə qalib gələ bilməzdi".

Azərbaycan xalqı Böyük Vətən müharibəsinin əsas ağırlığını öz üzərinə götürmüş ölkələrdən biri idi. Ərazisində müharibə getməsə də, bu cənub ölkəsinin vətəndaşları istər ön, istərsə də arxa cəbhədə böyük şücaətlər göstərərək qələbəyə böyük töhfələr verdi. Müharibənin ilk illərindən etibarən azərbaycanlılardan ibarət yüzlərlə özünümüdafiə batalyonları təşkil olundu. Azərbaycan diviziyaları Qafqazdan Berlinədək şanlı döyüş yolu keçdi, yüzlərlə həmyerlimiz isə partizan dəstələrinin tərkibində vuruşdu. Azərbaycanın əsgər və zabitləri Brest, Moskva, Leninqrad, Kiyev, Stalinqrad, Ukrayna, Belarus, Pribaltika cəbhələrində cəsarət nümayiş etdirdilər. Bu gün də İkinci Dünya müharibəsində şərəfli döyüş yolu keçmiş Azərbaycan övladlarının tarixi şücaətləri yaddaşlardan silinmir, bu qəhrəmanlıq gənc nəslə vətənpərvərlik nümunəsi kimi xatırlanır.

Bu qanlı müharibənin nəticəsi isə hər kəsə aydındı... Bəşəriyyət 1945-ci ilin 9 mayında faşizm üzərində qələbə qazandı və ötən müddət ərzində dünya düzənində də qarşısıalınmaz dəyişikliklər baş verdi. Azərbaycan SSRİ-nin tərkibindən ayrılaraq müstəqilliyinə nail oldu. Ancaq SSRİ-nin dağılmasından, Azərbaycanın müstəqillik qazanmasından sonra da Qələbə günü bütün MDB ölkələrində, o cümlədən Azərbaycanda qeyd edilir. Azərbaycan da özünün qəhrəmanlarını unutmur. Eyni zamanda, bu qəhrəmanlar torpaqlarının 20 faizi Ermənistan tərəfindən işğal olunmuş ölkəmizin vətəndaşları üçün əsl örnəkdir. Azərbaycan Prezidenti İlham Əliyev hər il Qələbə günündə sağ qalmış müharibə iştirakçılarına və onların dul qadınlarına mükafatlar verir. Qədirbilən Azərbaycan xalqı öz şanlı oğullarının xatirəsinə ölkənin hər yerində, hətta ən ucqar kəndlərdə də abidələr ucaldır.

Böyük Vətən müharibəsində faşizm üzərində Qələbənin ildönümü münasibətilə hər il təntənəli mərasimlər keçirilir. Xalqımızın fəxri olan Böyük Vətən müharibəsi veteranlarının qəhrəmanlığı böyük hörmətlə xatırlanır, həlak olan soydaşlarımızın xatirəsi ehtiramla yad olunur. Bu ağır döyüşlərdə misilsiz şücaət göstərmiş soydaşlarımızın xidmətləri heç vaxt unudulmur. Dövlət başçısı İlham Əliyev və Birinci vitse-prezident Mehriban xanım Əliyeva İkinci Dünya müharibəsinin veteranları ilə görüşür, onları Qələbənin ildönümü münasibətilə təbrik edirlər. Bir sözlə, dünya müharibəsi iştirakçılarına dövlət başçımız tərəfindən daim dərin hörmət və ehtiram, diqqət və qayğı göstərilir. Ulu öndər Heydər Əliyev 1993-cü ildə yenidən hakimiyyətə qayıtdıqdan sonra müharibə veteranlarının hüquqlarını bərpa etdi. Ümummilli Lider onları "Xalqımızın qızıl fondu" adlandırırdı. Ulu Öndərin layiqli davamçısı olan Prezident İlham Əliyev də müharibə veteranlarının sosial problemlərinin həlli istiqamətində daim mühüm addımlar atır, 9 May - Qələbə Günü ərəfəsində onlara birdəfəlik maddi yardımlar göstərir. Ölkə başçısı, həmçinin 1941-1945-ci illər Böyük Vətən müharibəsi iştirakçılarına, müharibədə həlak olmuş və ya sonralar vəfat etmiş döyüşçülərin dul arvadlarına, arxa cəbhədə fədakar əməyinə görə orden və medallarla təltif edilmiş şəxslərə birdəfəlik maddi yardım verilməsi haqqında sərəncam da imzalamışdır. Bu isə həmin kateqoriyadan olan insanların sosial vəziyyətinin daim diqqət mərkəzində olduğunu nümayiş etdirir.

İkinci Dünya müharibəsində şərəfli döyüş yolu keçmiş Azərbaycan övladlarının tarixi şücaətləri, habelə arxa cəbhədə fədakarlıqla çalışanların xidmətləri heç vaxt yaddaşlardan silinməyəcək, gənc nəslə əsl vətənpərvərlik nümunəsi olacaq. Veteranlarımızın hər biri bizim üçün çox əziz insan, əsl həyat məktəbi, canlı tarixdir. Bu qələbə bayramının şərəfini uca tutmaq, hər bir veterana diqqət və qayğı göstərmək, onları anmaq hər birimizin müqəddəs borcudur.

**Leytenant
Oruc MUSTAFAYEV,
"Azərbaycan Ordusu"**

# Müdafiə Nazirliyi Mətbuat Xidmətinin məlumatı

## Azərbaycan Ordusunda snayperlərin hazırlığı yoxlanılır

Müdafiə nazirinin təsdiq etdiyi 2020-ci il üçün döyüş hazırlığı planına uyğun olaraq, şəxsi heyətin döyüş vərdişlərinin təkmilləşdirilməsi məqsədilə snayperlərin hazırlığı yoxlanılır.

Snayper qrupları böyük məsafələrə yürüş, əlverişli mövqelərin tutulması, mövqelərin maskalanması, ərazi kəşfinin aparılması, yanlış snayper mövqelərinin qurulması, müxtəlif məsafələrdəki hədəflərə fərdi və qrup halında atışlar icra edirlər.

## Ermənistan silahlı birləşmələri atəşkəs rejimini pozub

***14 aprel 2020-ci il.***

Ermənistan silahlı qüvvələrinin bölmələri cəbhənin müxtəlif istiqamətlərində snayper tüfənglərindən də istifadə etməklə sutka ərzində atəşkəs rejimini 23 dəfə pozub.

Ermənistan Respublikası Krasnoselsk rayonu ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərdən Gədəbəy rayonunun Göyəli kəndində yerləşən mövqelərimiz atəşə tutulub.

Cəbrayıl rayonunun işğal altında olan Nüzgar kəndi yaxınlığında, həmçinin Tərtər və Ağdam rayonları ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərdən də ordumuzun mövqeləri atəşə tutulub.

# Tank heyətlərinin döyüş hazırlığı yoxlanılır



Müdafiə Nazirliyi Mətbuat Xidmətinin məlumatına əsasən, 2020-ci il üçün hazırlıq planına uyğun olaraq Azərbaycan Ordusunun tank bölmələrinin intensiv döyüş hazırlığı məşğələləri davam edir.

Çöl məşqləri zamanı heyətlərin bacarığı və uyarlığı yoxlanılır, gündüz və gecə vaxtı hərəkətdə olan şərti düşmən hədəflərinə döyüş atışları icra olunur.

Bundan əlavə, şəxsi heyət döyüş maşınlarının idarə olunması üzrə praktiki təlim tapşırıqlarını icra edir.

# Naxçıvan Qarnizonu Qoşunlarının bölmələrində komandir hazırlığı məşğələləri keçirilib

"Naxçıvan Qarnizonu Qoşunlarının 2020-ci tədris ilinə uzlaşma planı"na əsasən, tabor, divizion komandirləri və müavinləri ilə komandir hazırlığı sistemində məşğələlər keçirilib.

Müdafiə Nazirliyi Mətbuat Xidmətinin məlumatına əsasən, məşğələlərdə əsas diqqət zabitlərin əməliyyat hazırlığına və bölmələrin idarə edilməsində praktiki vərdişlərin təkmilləşdirilməsinə yönəldilib.

Cəlb olunan heyətə əməliyyat-taktiki hesablamaların aparılmasının qoşunların fəaliyyətinin planlaşdırılmasında və qərarın qəbul edilməsində vacibliyi göstərilib.



Zabitlər bölmələrin və atəşin idarəolunması üzrə keçirilən taktiki təlimdə iştirak ediblər.



# Komitə sədrinin müavini: Hərbçilərə mənzil verilməsi olduqca əhəmiyyətli hadisədir

*"Mənzillə təmin olunmanı, sadəcə hərbçilərə ev verilməsi kimi yox, daha əhəmiyyətli hadisə - Azərbaycan Ordusunun mənəvi-psixoloji, döyüş əhval-ruhiyyəsinin yüksək tutulması, dövlət təhlükəsizliyimizin təmin olunması kontekstində qiymətləndirmək doğru olar".*

Bunu "Report"a açıqlamasında Milli Məclisin Müdafiə, təhlükəsizlik və korrupsiya ilə mübarizə komitəsinin sədr müavini Hikmət Babaoğlu deyib.

O bildirib ki, ön cəbhədə olan əsgər həm də bir vətəndaşdır, onun qayğıları öz həllini tapmalıdır: "Azərbaycan dövləti daim hərbçilərimizin bütün sosial problemlərini həll edir. Ordumuzun güclü, müdafiə qabiliyyətli olması üçün hərbçilərimizin bütün sosial problemləri də həll olunmalıdır. Azərbaycan dövləti ən müxtəlif vaxtlarda və vaxtaşırı hərbçilərin mənzillə təmin olunması ilə bağlı tədbirlər həyata keçirir, onların sosial rifahının, məişət şəraitinin yaxşılaşdırılmasına görə işlər görülür. Təbii ki, bunlar şəxsi heyəti sosial qayğılardan azad etməklə, onların diqqətini daim Vətənin müdafiəsinə yönləndirmiş olur. Bu da hazırkı müharibə şəraitində yaşayan Azərbaycan üçün olduqca əhəmiyyətlidir. Şübhəsiz ki, milli təhlükəsizliyin qorunmasının müxtəlif vasitələri var. Bu gün hər bir ölkənin milli təhlükəsizliyini yumşaq güc vasitələrindən tutmuş hərbi güc vasitələrinə kimi geniş bir spektr əhatə edir. Ancaq bütün bunlara baxmayaraq, indiki tarixi mərhələdə ən ümdə məsələ və ən böyük vəzifə millətin ordusunun üzərinə düşür. Çünki sərhədlərimizin keşiyində dayanan əsgərlərimiz, milli ordu mənsublarımız, ilk növbədə, ərazi bütövlüyümüzün, milli təhlükəsizliyimizin təminatçıları qismində çıxış edirlər. Buna görə də Azərbaycan dövləti daim ordu mənsublarımızın sosial-məişət problemlərinin həlli ilə bərabər, mütləq şəkildə ordumuzun da ən müasir texniki avadanlıqlarla təchiz olunmasını təmin edir. Bu da kompleks xarakter daşıyır. Nəticədə ön cəbhədə olan əsgər həm də bir vətəndaşdır, qayğıları var. Onlar da öz həllini tapmalıdır".

Milli Məclisin deputatı Asim Mollazadə isə hərbçilərin sosial ehtiyaclarının həll edilməsini Azərbaycan Silahlı Qüvvələrinin gücləndirilməsi kimi dəyərləndirib:



"Dövlətin orduya olan qayğısı Azərbaycan dövlətini daha da gücləndirir. İmkan yaradır ki, hərbçilər Vətən uğrunda döyüşə gedəndə rahat olsunlar ki, dövlət onların yanındadır, dövlət təkcə onlara deyil, elə ailələrinə də dəstək göstərəcək.

Azərbaycan hazırda müharibə şəraitindədir. Müharibə həm səngərlərdə gedir, həm də informasiya platformasında. Ona görə də biz çalışmalıyıq ki, dövlətimiz güclənsin və Azərbaycan Silahlı Qüvvələri bölgədə ən güclü orduya çevrilsin. Əminəm ki, hərbçilərimizin bütün sahələrdəki sosial problemlərinin həlli istiqamətində Azərbaycan dövləti çox ciddi addımlar atacaq".

Qeyd edək ki, Azərbaycan Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyevin və birinci xanım Mehriban Əliyevanın iştirakı ilə Suraxanı rayonunun Hövsan qəsəbəsində salınan yeni yaşayış kompleksinin açılışı olub.

Ölkə başçısının "Azərbaycan Respublikası Silahlı Qüvvələrinin hərbi qulluqçularının sosial müdafiəsinin gücləndirilməsi tədbirləri barədə" Fərmanı ilə yaradılan komissiyanın müraciəti əsasında hərbi qulluqçuların mənzillərlə təmin olunması məqsədilə kompleksdə tam təmirli 436 mənzil ayrılıb.

Mənzillər tam təmirli olmaqla yanaşı, zəruri mebel avadanlıqları, fərdi kombi sistemi ilə də təchiz edilib. Kompleksin daxilində yaşayış üçün bütün infrastruktur yaradılıb. Belə ki, 1920 şagird yerlik məktəb binası, hər biri 90 yerlik iki uşaq bağçası inşa olunaraq sakinlərin ixtiyarına verilib. 20 hektar ərazidə inşa olunan kompleksin həyətində işıqlandırma sistemləri qurulub, yaşıllıq sahəsi salınıb, ətraf abadlaşdırılıb, uşaqların asudə vaxtının səmərəli təşkili üçün park və mini futbol meydançaları yaradılıb. Bütün bunlar da şəhərcik sakinlərinin rahatlığının təmin olunmasına əlverişli şərait yaradıb.

Mənzillər təqdim olunan hərbi qulluqçular və onların ailə üzvləri yaradılan şəraitə, göstərilən qayğıya görə Ali Baş Komandana, Birinci vitse-prezidentə və Müdafiə Nazirliyinin rəhbərliyinə minnətdarlıqlarını bildiriblər.

Dövlətin daim qayğısı ilə əhatə olunan hərbi qulluqçuların sosial-məişət şəraitinin yaxşılaşdırılması məqsədilə icra olunan mühüm layihələr bundan sonra da ardıcıl xarakter alacaq. Hər bir hərbçi, müharibə əlili, şəhid ailəsi tam əmin ola bilər ki, dövlətimiz daim onların yanında olacaq və öz qayğısını yüksək səviyyədə göstərməyə davam edəcək.

# "Cənab Ali Baş Komandana minnətdarlığımızı bildiririk"



*Bu yaxınlarda hərbçilərin sosial-məişət şəraitinin yaxşılaşdırılması məqsədilə Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyevin və birinci xanım Mehriban Əliyevanın iştirakı ilə Suraxanı rayonunun Hövsan qəsəbəsində yeni yaşayış kompleksinin istifadəyə verilməsi Azərbaycan Ordusunun ruh yüksəkliyinin formalaşdırılmasına ən gözəl nümunədir. Həmin ərəfədə mənzillə təmin olunan bir qrup hərbi qulluqçu ilə görüşüb onların yeni yaşayış kompleksinin istifadəyə verilməsi ilə bağlı fikirlərini öyrəndik.*



**Polkovnik Şərif Ərəblinski:**

- Ulu öndər Heydər Əliyev siyasi kursunun Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev tərəfindən inamla davam etdirilməsinin nəticəsidir ki, dövlətçiliyimizin siyasi və iqtisadi dayaqları daha da möhkəmlənib, həmçinin dövlət və ordu quruculuğu prosesində böyük nailiyyətlər əldə olunub. Bu gün Azərbaycan Ordusunun maddi-texniki bazası, intellektual potensialı inanılmaz dərəcədə inkişaf edib. Ordunun istənilən döyüş tapşırığını layiqincə yerinə yetirməyə qadir bir qüvvə kimi formalaşması məhz ölkə rəhbərliyi tərəfindən orduya göstərilən diqqət və qayğının nəticəsidir. Dövlət büdcəsindən ordu quruculuğu prosesinə ayrılan xərclərin davamlı artması nəticəsində hərbi qulluqçuların sosial-məişət şəraiti mütəmadi yaxşılaşdırılır. Suraxanı rayonunun Hövsan qəsəbəsində salınan yeni yaşayış kompleksində 436 mənzilin biz hərbi qulluqçulara təqdim edilməsi buna ən yaxşı misaldır. Bu amil ordunun inkişaf perspektivlərini daha da genişləndirir və biz hərbi qulluqçularda ruh yüksəkliyi yaradır. Ən vacib şərtlərdən biri də odur ki, bu kompleksdə hərbi qulluqçuların yaşaması üçün bütün infrastrukturlar - məktəb binası, iki uşaq bağçası, uşaqların asudə vaxtının səmərəli təşkili üçün park və mini futbol meydançaları inşa olunub. Bir sözlə, bizim və ailə üzvlərimizin rahatlığının təmin olunması üçün əlverişli şərait yaradılıb. Yaradılan şəraitə, göstərilən qayğıya görə cənab Ali Baş Komandana, Birinci vitse-prezidentə və Müdafiə Nazirliyinin rəhbərliyinə minnətdarlığımızı bildiririk.



**Polkovnik-leytenant Akif Hacıyev:**

- Sabitlik, dinamik iqtisadi inkişafla yanaşı, güclü ordu quruculuğu müasir Azərbaycanı xarakterizə edən əsas amillərdən biridir. Son illər ölkəmizin iqtisadi qüdrətinin artması sosial məsələlərin həllinə və milli ordumuzun möhkəmlənməsinə geniş imkan yaradıb. Dövlət büdcəsindən hərbi sahəyə ayrılan xərclərin dəfələrlə artırılması ordumuzun bütün istiqamətlər üzrə potensialının yüksək səviyyəyə çatdırılmasına yol açıb. Qeyd etmək lazımdır ki, güclü ordu üçün ən əsas şərtlərdən biri şəxsi heyətin mənəvi-psixoloji vəziyyətidir. Ali Baş Komandanımız tərəfindən həyata keçirilən uğurlu sosial-iqtisadi siyasətin və Müdafiə Nazirliyinin rəhbərliyinin məqsədyönlü fəaliyyətinin nəticəsi olaraq bu yaşayış kompleksinin istifadəyə verilməsi Azərbaycan Ordusunun şəxsi heyətində mənəvi-psixoloji ruh yüksəkliyi yaratdı.

**2-ci dərəcəli kapitan Şahin Baxışov:**

- Azərbaycanın bütün strateji əhəmiyyətli sahələrində dinamik inkişafa yol açan ardıcıl və sistemli islahatlar həyata keçirən dövlət başçısı ordu quruculuğuna da xüsusi diqqətlə yanaşır. Azərbaycan Ordusunun müdafiə qüdrətinin və döyüş qabiliyyətinin artırılması, maddi-texniki təchizatının yaxşılaşdırılması, o cümlədən hərbi qulluqçuların sosial müdafiəsi tədbirlərinin gücləndirilməsi bu siyasətin prioritet istiqamətləri kimi diqqət çəkir.

Azərbaycan dövlətinin hərbi qulluqçulara qayğısı illərdir ki, ənənə halını alıb. Azərbaycan Ordusunun şəxsi heyəti bu hərtərəfli qayğını öz həyatlarında daim hiss edir. Ölkəmizdə bir çox kateqoriyadan olan vətəndaşlarımız kimi, hərbi qulluqçuların da mənzillə təmin olunması, dövlətin bizlərə təmənnasız mənzil verməsi olduqca nümunəvi bir haldır. Bu gün Hövsan qəsəbəsində evlə təmin olunmağımız bizim sosial-məişət qayğılarımızdan uzaqlaşaraq ordu quruculuğu prosesinə daha çox töhfə verməyimizə səbəb olacaq. Mənzili olan hərbi qulluqçular gücünü ancaq hərbi fəaliyyətə yönəldəcək, dövlətə, dövlətçiliyə daha çox fayda verməyə çalışacaqlar. Bütün bunlar biz hərbi qulluqçuların qarşısında qoyulan vəzifələrin icrasına məsuliyyətimizi daha da artırır, Vətən qarşısında borcumuzu vicdanla yerinə yetirməyə ruhlandırır. Nəticədə bizlər də öz bilik və bacarığımızdan, təcrübəmizdən istifadə edərək cənab Ali Baş Komandanımızın, Müdafiə Nazirliyinin rəhbərliyinin etimadını doğruldacaq, ordumuzun güclənməsinə öz töhfələrimizi verəcəyik.

**"Azərbaycan Ordusu"**

# Əlahiddə Ümumqoşun Orduda hərbi qulluqçular arasında yarış keçirilib

*Əlahiddə Ümumqoşun Orduda "Ən yaxşı artilleriya divizionu" adı uğrunda yarış keçirilib.*



Yarışda artilleriya divizionlarının şəxsi heyəti bütün mərhələlər üzrə tapşırıqları uğurla yerinə yetirərək birinci olmaq üçün bilik və bacarıqlarını nümayiş etdirib.

Təlim-döyüş tapşırığını icra edən artilleriya divizionlarının tədris-maddi bazası, şəxsi heyətin təchizatı, fərdi və qrup halında normativlərin icra səviyyəsi yoxlanılıb.

Yarışın şərtlərinə uyğun olaraq təlim-atəş tapşırıqlarını vaxtında və dəqiq yerinə yetirən "N" hərbi hissənin artilleriya divizionu "Ən yaxşı artilleriya divizionu" adına layiq görülüb.

**Baş leytenant
Nəriman NƏCƏFOV,
"N" hərbi hissəsi**



# HDQ Dalğıc Təlim Poliqonunda hazırlıq məşqləri keçirilir

Müdafiə nazirinin təsdiq etdiyi hazırlıq planına uyğun olaraq, Hərbi Dəniz Qüvvələrinin Dalğıc Təlim Poliqonunda dalğıcların hazırlıq məşqləri keçirilir.

Müdafiə Nazirliyi Mətbuat Xidmətinin məlumatına əsasən, döyüş koordinasiyasına nail olmaq məqsədilə keçirilən məşqlərdə hərbi qulluqçular dalğıc təhsili proqramı çərçivəsində müxtəlif spesifik məşqləri icra edir, dalğıc hazırlığı üzrə normativlər verir və sualtı döyüşün aparılması vərdişlərini təkmilləşdirirlər.

Hərbi qulluqçular müxtəlif təyinatlı maneələr zolağında döyüş, fiziki və peşə hazırlıqlarını artırırlar.

# "Su-35" və "MiQ-35" təyyarələrinin silahlanmamıza daxil edilməsi hava məkanındakı üstünlüyümüzü dəfələrlə artıracaq

*Azərbaycan Hərbi Hava Qüvvələri (HHQ) nümayəndələrinin Rusiyanın döyüş təyyarələri istehsal edən hərbi-sənaye müəssisələrinə səfəri iki ölkə arasında hərbi-texniki əməkdaşlığın yüksək səviyyədə olmasının bariz nümunəsidir. HHQ-də aparılan genişmiqyaslı islahatlar Azərbaycan hərbi aviasiyasının hava məkanında, xüsusilə hava əməliyyatlarının keçirilməsi zamanı döyüş imkanları baxımından Ermənistandan üstün olmağa şərait yaradıb.*

Bunu Azərbaycan Hərbi Hava Qüvvələrində (HHQ) xidmət etmiş, hazırda ehtiyatda olan polkovnik-leytenant Rövşən Həşimov AZƏRTAC-a açıqlamasında bildirib.

Onun sözlərinə görə, "Su-35" və "MiQ-35" təyyarələrinin Azərbaycana tədarükü barədə aparılan danışıqlar çox güman ki, yaxın zamanda ölkəmizin HHQ-nin daha da gücləndirilməsinə imkan verəcək.

"Bunu daha aydın təsəvvür etmək üçün təyyarələrin uçuş-texniki xüsusiyyətləri və döyüş imkanlarına diqqət çəkmək istərdim. Hər iki tip çoxfunksiyalı və yüksək manevrli döyüş təyyarələrinin özəlliyi onların 4++ nəslinə aid olmasıdır. Bu nəsil təyyarələrə qədər istehsal olunan digər döyüş qırıcıları yalnız modernizə olunaraq onların müəyyən imkanları artırılırdı. Bu təyyarələrin üstün xüsusiyyətlərindən biri də onların maksimal uçuş uzaqlığıdır. Bu göstərici "Su-35" də 4500 kilometr, "MiQ-35" də isə 3500 kilometrdir.

Hər iki təyyarədə hədəfləri aşkar etmək üçün yeni tip radiolokasiya stansiyaları quraşdırılıb. Açıq arxitekturası olan hər iki təyyarə lokal müharibənin aparılmasında mühüm rol oynayan radioelektron mübarizə vasitələrindən ibarət rəqəmsal müdafiə kompleksləri ilə təchiz edilib. Bu, həmin təyyarələrə bütün növ müasir aviasiya silahlarından istifadə etmək imkanı verir.

Ən yeni texnologiyaların tətbiqi ilə istehsal edilən "Su-35" təyyarəsi "hava-hava" sinfinə aid yeni "R-37M" səsdən sürətli raketlərdən istifadə edir və məhz buna görə də 300 kilometr uzaqlıqda olan hava hədəflərini məhv etmək imkanına malikdir. Düşmənin hava hücumundan müdafiə vasitələrinin əhatə etdiyi zonadan kənarda qalmaqla yüksək dəqiqlikli silahlarla yerüstü və suüstü hədəflərə effektiv zərbələr endirməyə malik olan "Su-35" təyyarəsi 12, "MiQ-35" təyyarəsi isə 9 ədəd müxtəlif tipli aviasiya məhvetmə vasitələri daşımaq üçün asqı nöqtəsinə malikdir.

"Su-35" təyyarələri "hava-hava" tipli R-73, R-77, R-27 raketləri, "hava-yer" tipli X-25, X-29, X-38 raketləri, gəmiyə qarşı X-31, X-35, X-59 raketləri və KAB-500KR, KAB-1500KR, MiQ-35 təyyarələri isə "hava-hava" tipli R-73, R-77, R-27 raketləri, "hava-yer" tipli X-25, X-29, X-38 raketləri, gəmiyə qarşı X-31 raketləri və KAB-500L, KAB-500KR bombaları ilə silahlana bilirlər. "Su-35" və "MiQ-35" qırıcılarının fərqləndirici xüsusiyyətlərindən biri də uzaq məsafədə eyni vaxtda bir neçə hava hədəfinin aşkar edilməsi, izlənməsi və məhv edilməsidir.

Azərbaycan HHQ-nin bu növ qırıcı təyyarələrlə gücləndirilməsi döyüş əməliyyatları zamanı onlara ordumuzun qoşun növləri və qismlərini havadan dəstəkləməklə yanaşı, düşmənin yerüstü qoşun qruplaşmasını, hərbi və strateji əhəmiyyətli obyektlərini məhv etmək imkanı verəcək", - deyə R.Həşimov qeyd edib.

# Naxçıvan Qarnizonu Qoşunlarında komanda-qərargah təlimi başlayıb

"Naxçıvan Qarnizonu Qoşunlarının 2020-ci tədris ilinə uzlaşma planı"na əsasən, bir neçə birləşmə və hissənin cəlb edilməsi ilə komanda-qərargah təlimi başlayıb.

Müdafiə Nazirliyi Mətbuat Xidmətinin məlumatına əsasən, müxtəlif döyüşə hazırolma dərəcələrinə gətirilən birləşmə və hissələrin bölmələri cəmləşmə və döyüş təyinatı rayonlarına, atəş və start mövqelərinə çıxarılaraq ərazidə maskalanma, mühafizə və mühəndis təminatı üzrə tədbirləri yerinə yetirir.

Düşmənin kəşfiyyat-diversiya, hava hücumu, raket və artilleriya zərbələrinə qarşı şəxsi heyətin fəaliyyətləri məşq etdirilir.

İdarəetmənin təşkili üçün ərazidə dayaq və mobil radioqovşaqlar açılıb.

# Hərbi qulluqçular ünvanlı yardım çatdırıblar



Koronavirus infeksiyasının yayılmasının qarşısının alınması ilə əlaqədar ölkədə tətbiq olunan xüsusi karantin rejimini nəzərə alaraq hərbi qulluqçular şəhidlərimizin 65 yaşdan yuxarı ailə üzvlərinə, yaşlı müharibə veteranları və əlillərə ünvanlı yardım çatdırıblar.

Müdafiə Nazirliyi Mətbuat Xidmətinin məlumatına əsasən, Gəncə Qarnizonu İdeoloji və Mədəniyyət Mərkəzinin nümayəndələri və hərbi qulluqçular ailələri ziyarət edərək zəruri ərzaq məhsullarını və şəxsi gigiyena vasitələrini onlara təqdim ediblər.

Hazırda bu kateqoriyadan olan şəxslərin müəyyən edilərək onlara yardım edilməsi istiqamətində işlər davam etdirilir.

# Ermənistan ordusunda kriminal hadisələr

İşğal edilmiş yaşayış məntəqələrimizdə yerləşdirilən Ermənistan silahlı qüvvələrinin bölmələrində nizamnamədənkənar münasibətlər zəminində, eləcə də fiziki və mənəvi təzyiqlər səbəbindən daha bir cinayət hadisəsi baş verib.

İşğalçı ordunun Madagiz yaşayış məntəqəsindəki bölmələrdən birində xidmət edən hərbi qulluqçu Georgi Xalatyan və rabitə manqasının komandiri çavuş Artur Hakverdiyan arasında dava baş verib. Nəticədə müxtəlif bədən xəsarətləri alan hər iki hərbi qulluqçu tibb məntəqəsinə yerləşdirilib.

Faktı ört-basdır etmək üçün komandanlıq hər iki hərbi qulluqçunu şikayət ərizəsi yazmağa məcbur edib. Hərbi qulluqçuların yaxınlarının dediyinə görə əsgərlər üz nahiyələrindən ciddi xəsarətlər alıblar.

Məlumat hüquq-mühafizə orqanlarına verilmədiyindən cinayət işi açılmayıb.

* * *

İşğal edilmiş yaşayış məntəqələrimizdə yerləşdirilən Ermənistan silahlı qüvvələrinin bölmələrində nizamnamədənkənar münasibətlər, fiziki və mənəvi təzyiqlər səbəbindən baş verən növbəti cinayət hadisəsi qalmaqala səbəb olub.

İşğalçı ordunun hərbi qulluqçusu Mardir Vaskanyan xidmət yoldaşları tərəfindən vəhşicəsinə döyülüb. Hadisəni hüquq-mühafizə orqanlarından gizlətmək məqsədilə xəsarət alan əsgər M.Vaskanyan hərbi hissənin tibb məntəqəsinə göndərilib.

Hərbi qulluqçunun vəziyyətinin və travmasının ağır olduğunu təsbit edən hərbi hissənin həkimi Ermənistan ordusunun döyülən əsgərini müalicə etməkdən imtina edib. Hərbi qulluqçunun sağlamlığında ortaya çıxa biləcək fəsadlara görə məsuliyyəti öz üzərinə götürməkdən boyun qaçıran hərbi həkim M.Vaskanyanın təcili Xankəndinə hərbi hospitala təxliyə edilməsinə qərar verib. Onun bu addımı nəticəsində komandanlıqla yaranan münaqişə və hədə-qorxulara baxmayaraq həkim qərarından vaz keçməyib.

Əsgəri hospitala göndərdikdən sonra həkim hərbi polisə də məlumat verib.

Hadisə ilə bağlı açılan cinayət işi hərbi polis tərəfindən araşdırılır.

**Hazırladı:
İsa ELDAROĞLU**

*Ovqat*

# Səngərdən salam



Əlahiddə Ümumqoşun Ordunun ucqar və çətin dağlıq şəraitdə yerləşən bölmələrində möhkəm müdafiə potensialı yaradılıb, müşahidə məntəqələri, səngər və əlaqə yolları çətin şəraitə uyğunlaşdırılıb. Bu günlərdə belə hərbi hissələrdən birində olduq. Hərbi hissənin əsgəri-məişət kompleksində əsgər və zabit yataqxanaları, tibb məntəqəsi, növbətçi otağı, ideoloji sinif, zabitlər üçün iş otaqları, silah və digər xidməti otaqlar, mətbəx, yeməkxana, əşya və ərzaq anbarları, hamam-camaşırxana və qazanxana yerləşir. Ərzaq və əşya anbarları müasir səviyyədə qurularaq soyuducu kameralar və digər zəruri avadanlıqlarla təchiz edilib. Binaların həyətində sıra meydanı və idman şəhərciyi salınıb, texnika saxlancı tikilib. Şəxsi heyətin asudə vaxtının səmərəli təşkili məqsədi ilə istirahət guşəsi istifadəyə verilib, ərazidə abadlıq işləri görülərək yeni asfalt yol salınıb. Ön xətdə xidmətin günün nizam qaydalarına uyğun təşkili, əsgərlərin normal qidalanması və sağlamlıqlarının qorunması üçün hərtərəfli şərait yaradılıb. Ərazinin relyefinə və iqlim şəraitinə uyğun inşa olunan əsgəri-məişət kompleksi daimi işıq, su və istilik sistemi ilə təchiz edilib.

Mürəkkəb dağlıq şəraitdə yerləşən bölmələrdə keçirilən məşğələlər zamanı şəxsi heyətə müxtəlif silah, texnika və qurğuların taktiki-texniki xüsusiyyətləri öyrədilir, ərazinin relyef və iqlimi haqqında məlumat verilir, eləcə də təhlükəsizlik qaydaları çatdırılır. Hərbi hissənin zabiti Özal Əliyev qeyd etdi ki, buradakı sinif otaqları, vətənpərvərlik mövzusundakı foto-stendlər, divar qəzetləri əsgərlərin mənəvi-psixoloji hazırlığında mühüm rol oynayır. "Eləcə də döyüş hazırlığı məşğələləri səhra şəraitində plana uyğun davam edir". Bölmənin digər zabiti Elmar Əliyev isə idman meydançasını göstərərək dedi ki, burada fiziki hazırlıq məşğələlərini rahat şəkildə keçməyimiz üçün müxtəlif idman qurğuları quraşdırılıb. Təbii ki, bu da şəxsi heyətin fiziki sağlamlığına müsbət təsir göstərir.

Müdafiə mövqelərində xidmət aparan şəxsi heyətin sağlamlığı vacib amil olduğundan bölmələrin tibb məntəqələri bütün tibbi ləvazimatlarla təmin edilib və hərbi qulluqçuların gigiyena qaydalarına düzgün əməl etmələri üçün profilaktik tədbirlər görülür. Bütün bunlar da döyüş növbətçiliyinin uğurlu təşkilinə müsbət təsir göstərir. Bölmənin həkim-feldşeri Ramal Abdulov şəxsi heyətin döyüş növbətçiliyinə təyin olunanda, növbəyə çıxanda və növbədən qayıdanda tibbi müayinədən keçdiyini bildirdi.

Bu gün Azərbaycan əsgəri peşəkar döyüşçü kimi Hərbi andın və nizamnamələrin tələblərinə əməl edir, dövlətin qayğısını hər zaman üzərində hiss edərək və xalqdan güc alaraq torpaqlarımızın müdafiəsində ayıq-sayıq dayanır. Əsgərlərimizdən Nurlan Quliyev, Emil Abbaszadə, Nicat Yahyayev, Səməd Hacıyev, Rüfət Osmanov, Kənan Namazəliyev və digərləri bildirdilər ki, ön xətdə xidmət etməkləri ilə qürur duyurlar, verilən tapşırıqları vaxtında və çevik yerinə yetirməyə çalışırlar. "Keçirilən məşğələ və təlimlərdə fəal iştirak edərək bilikli, bacarıqlı, tam hazırlıqlı əsgərlər kimi gücümüzü ikiqat artırırıq ki, həmişə düşməndən güclü olaq, hər bir təxribatın qarşısını ləyaqətlə alaq."

Bölmənin əsgərlərindən Məhəmməd, Münasib, Mətin, Nihad olan gənclərimizin hər biri ölkəmizin müxtəlif bölgələrindən olsalar da, onları birləşdirən dəyər azərbaycançılıq ideologiyasıdır. Bunu hərbi qulluqçularımızın hər biri öz fikri ilə təsdiqlədi. Çünki "Bir nəfər hamı, hamı bir nəfər üçün" şüarı şəxsi heyətin nümunəvi xidmətinə təkan verir.

Digər həmsöhbətlərim müddətdən artıq həqiqi hərbi xidmət hərbi qulluqçuları çavuş Ramazan Mehdiyev və əsgər Kənan Zeynalov oldu. Kiçik komandir kimi əsgərlərin döyüş mövqelərində ayıq-sayıq xidmət aparmaları üçün üzərlərinə düşən vəzifələrin öhdəsindən layiqincə gəlməyə çalışdıqlarını qeyd etdilər: "Müvafiq ixtisas hazırlığı kurslarından sonra bu bölmədə xidmətə başlamışıq. Ön xətdə xidmət etməyimizlə qürur duyur, verilən tapşırıqları vaxtında və çevik yerinə yetirməyə çalışırıq."

Şəxsi heyətin yüksək əhval-ruhiyyədə olması yaradılan nümunəvi xidməti şəraitin və hərbi xidmətin düzgün təşkilinin nəticəsidir. Həmçinin "Bir nəfər hamı, hamı bir nəfər üçün" şüarı şəxsi heyətin xidmətinin əsasını təşkil edir. Bu şüarı əldə rəhbər tutan hərbi qulluqçularımız Vətən torpaqlarının etibarlı müdafiəsində yumruq kimi bir olduqlarını nümayiş etdirirlər. Bu gün xalqımızın ordumuzu güvənc yeri bilməsi isə qəlbi Vətən eşqi ilə döyünən vətəndaşlarımızın əsgərlərimizə sevgi və ehtiramının göstəricisidir.

**Baş leytenant**
**Nəriman NƏCƏFOV,**
**"N" hərbi hissəsi**

## Cənubi Sudandakı sülhməramlılarımızın fəaliyyəti yüksək qiymətləndirilib

### Növbəti qrup Cənubi Sudanda fəaliyyətə başlayıb

*Müdafiə Nazirliyi Mətbuat Xidmətinin məlumatına əsasən, BMT-nin sülhməramlı missiyasının (UNMİSS) komandanlığı altında Cənubi Sudan Respublikasında keçirilən missiyada iştirak edən Azərbaycan Ordusunun zabitləri plana uyğun olaraq Bakıya qayıdıb.*

2019-cu ilin yanvar ayından BMT-nin sülhməramlı missiyasında iştirak edən Azərbaycan hərbçilərinin fəaliyyəti beynəlxalq hərbi komandanlıq tərəfindən yüksək qiymətləndirilib.

Cənubi Sudana rotasiya qaydasında göndərilən Azərbaycan Ordusunun yeni heyəti isə bu ölkənin paytaxtı Cuba şəhərindəki missiyada fəaliyyətə başlayıb.

Azərbaycan Respublikasının Milli Məclisi 2018-ci il noyabrın 30-da BMT-nin sülhməramlı missiyasının komandanlığı altında Cənubi Sudan Respublikasında hərbi qulluqçularımızın yerləşdirilməsi və missiyada iştirakı haqqında qərar qəbul edib.

*Məişət xidməti*

# "Şəxsi heyətin məişət şəraiti müasir tələblər səviyyəsində qurulub"

*Azərbaycan Ordusunun maddi-texniki təminatı gücləndikcə şəxsi heyətin xidmət şəraitinin daha da yaxşılaşdırılması istiqamətində böyük işlər görülür. Köhnə hərbi hissələr yeni hərbi hissələrlə əvəz olunur, əsgəri məişət kompleksləri tikilib istifadəyə verilir, şəxsi heyətin hazırlıq səviyyəsinin yüksəldilməsi üçün ən müasir hərbi şəhərciklər salınır. Hər dəfə cəbhə bölgəsində bu yenilikləri görəndə qəlbimiz qürur hissi keçirir.*





Qarabağ müharibəsinin odun-dan-alovundan keçən, bu gün təmas xəttində eyni əzmkarlıqla dayanıb, düşmənin atəş nöqtələrini susduran "N" hərbi hissəsi də yenidən qurularaq şəxsi heyətin istifadəsinə verilib. Hərbi hissədə böyük quruculuq və abadlıq işləri aparılıb. Geniş ərazini əhatə edən müasir hərbi şəhərcikdə şəxsi heyətin təminatı üçün bütün zəruri tədbirlər görülüb. Hərbi hissədə əsgər yataqxanaları, yeməkxana, camaşırxana və hamamxana kompleksi tikilib, ərzaq və əşya anbarları, tibb xidməti, ideoloji otaqlar yaradılıb, onlar müasir zəruri avadanlıqlarla təmin olunub.

Zabit Elbrus Qazıyev hərbi hissənin təminatının yüksək səviyyədə olduğunu dedi: "Ön xətdə yerləşən bölmələrimizin maddi-texniki təminatı daha da gücləndirilib. Şəxsi heyətin məişət şəraiti müasir tələblər səviyyəsində qurulub. Yaradılan şərait şəxsi heyətin hərtərəfli təminatı üçündür. Gördüyünüz ərzaq anbarları müasir soyuducu kameralarla, zəruri avadanlıqlarla təchiz olunub. Əsgərlərimizə xidmət göstərən camaşırxanada daim iş gedir. Əlbəttə ki, bütün bunlar Azərbaycan Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyevin ordumuza göstərdiyi diqqət və qayğının sayəsindədir."

Müddətdən artıq həqiqi hərbi xidmət hərbi qulluqçusu kiçik çavuş Rauf Məmmədov kollektivin əsasən mülki işçilərdən təşkil edildiyini və bunun da fəaliyyətlərinə böyük səmərə verdiyini bildirdi: "Əsas iş prinsiplərimizdən biri avadanlıqların daima saz vəziyyətdə saxlanılmasıdır. Gördüyünüz bu camaşırxana avadanlıqları Avropa istehsalıdır. Dünyanın ən müasir texnologiyasına uyğun yaradılan yuyucu maşınlardır. Bu avadanlığın texnologiyasını bilmək üçün xüsusi kurslar təşkil olunub. Heç bir çətinlik çəkmədən bu yuyucu maşınları idarə edə bilirik. Camaşırxana 3 yuma, 2 qurutma, 1 ütü və 1 dərzi maşını ilə təmin olunub. Burada 4 bölmə fəaliyyət göstərir: yuma, qurutma, ütüləmə və çeşidləmə. Hər bölmədə iş bölgüsü var. Məqsədimiz şəxsi heyətin təmizliyini qorumaqdır. Bunun üçün də kollektivimizin hər bir üzvü işinə məsuliyyətlə yanaşır, verilən tapşırıqları vaxtında yerinə yetirir."

Kollektivdə səmimi və işgüzar bir şəraitin olduğunu görürük. Hər kəs iş başındadır. Doğrudanda da, elə xidmətlər var ki, oraya ancaq qadın əməyi cəlb olunmalıdır. Hərbi hissənin camaşırxanasına baş çəkəndə burada qadın səliqəsinin və təmizliyinin şahidi olduq. Operatorlar Səmayə Abdullayeva, Aynurə Atayeva, Səkinə Hətəmova, çeşidləyicilər Rəna Əsədova, Tünzalə Mehdiyeva və zəruri əşyaları ütüləyən Zahirə Rəhimova olduqca məsuliyyətlidirlər. Onlar şəxsi heyətin təmiz geyim, yataq və zəruri əşyalarla təmin edilməsinə cavabdehdirlər.

Qurutma maşınlarının operatoru, mülki işçi Səkinə Hətəmova bizimlə söhbətində dedi ki, bütün yeni tikilən hərbi hissələrin camaşırxanasında belə müasir avadanlıqlar var: "İndi əsgərlərimizin xidməti üçün gözəl şərait yaradılıb. Dövlətimizin rəhbəri ordumuza həmişə qayğı göstərir. Ordumuzla fəxr edirik. Bizim borcumuz isə bir ana kimi Vətənimizin keşiyində dayanan əsgərlərimizə xidmət göstərmək, onların məişət qayğılarını lazımınca həll etməkdir. Arzulayıram ki, tezliklə torpaqlarımız düşmən işğalından azad olunsun, orada da belə müasir hərbi hissələr yaradılsın və biz də əsgərlərimizə qulluq edək."

**Lalə HÜSEYNOVA,**
**"Azərbaycan Ordusu",**
**fotolar**
**Coşqun CƏFƏROVUNDUR**

AZƏRBAYCAN ORDUSU

## Ümummilli lider Heydər Əliyev:

*Milli dəyərlərimizi, milli ənənələrimizi yaxşı bilməyən, tariximizi yaxşı bilməyən gənc vətənpərvər ola bilməz. Hər bir gənc vətənpərvər olmalıdır. Vətənpərvərlik böyük bir məfhumdur. Bu, sadəcə orduda xidmət etmək deyil. Vətənə sadiq olmaq, Vətəni sevmək, torpağa bağlı olmaq - budur vətənpərvərlik.*

*Vətənpərvərlik*

# Torpağa oğul olmaq gərək...



Vətən sevgisi, vətənpərvərlik mövzusu qoşa qanad kimi çırpınaraq şair və yazıçılarımızın yaradıcılığında rəngbərəng çiçəklər açır. Onun ətri, rayihəsi daim oxucularda xoş duyğular oyadır, onları gələcək qələbələrə kökləyir. İnanıram ki, belə dərin, mənalı əsərlərlə yol yoldaşlığı edən oxucular sabahın qəhrəmanı kimi böyüyəcəklər. Yurdun müdafiəsinə həmişə hazır olacaqlar. Səngərlərə, döyüş meydanlarına, düşmənlə savaşa hünər və cəsarətlə atılacaqlar.

Həm publisistik məqalələri, həm də şeirləri ilə oxucuların qəlbinə asanlıqla yol tapmağı bacaran şair Əbülfət Mədətoğlunun yaradıcılığında da vətənpərvərlik duyğularının, Vətən sevgisinin tərənnümü güclü olduğu qədər təsirlidir. Şairin qəlbindən qələminə asta-asta süzülüb gələn şeirləri, publisistik məqalələri onun doğma kəndləri Tuğdan didərgin düşərək yaşadığı həsrət dolu günlərin ağrı-acılarından, əzablarından və məhəbbətindən mayalanır. Bəlkə elə ona görə də şairin vətənpərvərlik mövzusunda yazdığı şeirləri bu qədər kövrək, bu qədər qəlbəyatımlı, bu qədər təsirlidir. Ə.Mədətoğlunun nostalji hisslərə bürünmüş əsərləri daim oxucunu düşündürür, onu bir anlıq da olsa, ötən günlərə qaytarıb kövrəklik duyğuları aşılayır. Vətən sevgisi, doğma ocaqlara dönüş, torpaqlarımızın azad olunması onun yaradıcılığının ana xəttini təşkil edir. Şairin hər misrası, hər sətri, hər cümləsi vətənpərvərlik bulağından su içir, Vətən məhəbbətindən qidalanır, yurd sevgisinin unundan yoğrulur. Əbülfət Vətənə oğul olmağından qürur duyaraq hisslərini kağız üzərinə odlu-alovlu misralarla hopdurur:

**Bu torpağa oğul olmaq nəsibim,**
**Bu nəsiblik ucalıqdı, qürurdu!**
**Mən özümü dərk edəndən, duyandan,**
**Vətən eşqim nəbzim tək vururdu.**

Şair Sabir Zamanın əsərləri mübarizlik və qürurdan don geyinib desək, yəqin ki, yanılmarıq. Bu qürur oxucunu səngərlərə, döyüş meydanlarına və qalibiyyətə səsləyir. Zövqlər müxtəlif olduğundan deyilən, yazılan hər şeir, hər söz dinləyən, oxuyan insana bir cür təsir edir, bir cür sehirləyir. Nə qədər rəngarənglik və müxtəliflik olsa da, şairin yaradıcılığında əsgəri qələbəyə qovuşdurmağa ruhlandıran mübarizlik ruhu daha güclü, daha qabarıq hiss olunur. Məğlubiyyətlə barışmamaq, məğlubiyyətə alışmamaq, mübarizəyə çağırış, Vətəni sevmək sədaları onun yaradıcılığından gur bir axarla keçir. Sabir Zaman Vətənə üz tutaraq əlinə silah alıb döyüşməyincə, vuruşmayınca, qeyrətini döyüşlərdə tapmayınca, şəhid olmayınca ona oğul deməməsini xahiş edir. Şair onu narahat edən hisslərinə, oxucunu düşündürən fikirlərinə bu sözlərlə çıraq tutur:

**Vətən, mənə oğul demə,**
**Qeyrətimi tapanacan.**
**Uğrunda şəhid olub,**
**Torpağına hopanacan!**

Şair Maarif Soltanın da şeiri poetikliyi, rəngarəngliyi və deyim tərzi ilə diqqəti cəlb edir. Vətənə müraciət edən şair onun yolunda başı daşa dəysə də, bütün çətinliklərə dözəcəyini vurğulayır və oxucusunu da buna inandırmağa çalışır:

**Sənin uğrunda Vətən,**
**Daşın başıma dəyir,**
**Başım daşına dəyir!..**

Arayıb-axtarıb seçdiyim, haqqında çeşidli fikirlər yürütdüyüm və mənalarına işıq tutmağa çalışdığım mövzuya uyğun olaraq diqqətimi cəlb edən, məsləhət bilib dəftərçəmə köçürdüyüm şeirlərdən birinin də müəllifi şair Arzu Əsədovdur. Arzunun "Ver, ver bizə zəfəri" poemasındakı Vətənə aid kiçik bir epizod onun yurda, torpağa olan sevgisinin bariz göstəricisidir. Düşünürəm ki, yazdığı dəyərli misralar Vətən üçün narahat olan bir şairin pıçıltılarıdır. Bu pıçıltılar vətənpərvərlikdən güc aldığından çox təsirli və ibrətamizdir. Unu yurd sevgisindən, Vətən məhəbbətindən yoğrulmuş həmin misralardan sanki Vətən boy verərək narahatlıqla döyünən ürəyimizdə qönçələyib yenidən çiçəkləyir, yenidən bizi isti qoynuna alır. Bu çiçəklər elə Vətənimiz kimi gözəl və əsrarəngizdir. Arzunun yazdıqları həm poetik və düşündürücü, həm də böyük təsir gücünə malikdir. Oxuculara təqdim olunan bu misraları həyəcansız oxumaq olmur:

**...Sinəmdə**
**ilk məhəbbətdən, sözlərdən,**
**ağrıdan başqa**
**bir yer saxlamışam -**
**güllə yeri...**
**O yer sənindir, Vətən.**
**Sinəndə**
**çiçəklərin, otların, daşların**
**arasında**
**bir yer saxlamışam -**
**məzar yeri...**
**O yer mənimdir, Vətən.**

Vətən mövzusunda yazılmış belə gözəl əsərləri oxuduqca istər-istəməz ovqatımız yüksəlir, hisslərimiz coşur, ümidlərimiz uğurlu sabahların dan yerinə dikilir, inamımız zəfərlərə və uğurlara köklənir. Ömrümüz boyu həm şəxsi həyatımızdakı işlərimizdə, həm də döyüşlərdə Vətənin müdafiəsində uğurlara can atırıq.

Şair Gülayə Şınıxlı Vətən sevgisi ilə yanaşı, onun üstümüzdə olan haqqı barədə fikirlərini qələmə aldığı misralara böyük məharətlə hopdurur. Sanki fikir və düşüncələrini bacarıqlı usta kimi kərpic-kərpic hörür, ilmə-ilmə toxuyur. Misralardan duyulur ki, Vətənin haqqı onun üçün hər şeydən ucadır. Bu yolda asılıb soyulsa da, çətinliklərlə üzləşsə də, Vətənin haqqını hər şeydən uca tutacağını poetik şəkildə vurğulayır. Gülayə Şınıxlı arzu və niyyətini gözəl sözlərlə ifadə edir:

**Nə haqqım bu haqqı bölməyə belə,**
**Cismim, canım, ruhum sənlə tən, Vətən!**
**Yoxdur mənim haqqım ölməyə belə,**
**Asılıb soyulsam tənbətən, Vətən!**

İllərdir ki, yazdığı şeirləri ilə oxucunun sevgisini qazanmağa davam edən şair Nəriman Həsənzadənin də Vətən haqqında dəyərli və gözəl şeirləri çoxdur. Bu şeirlərdən sanki oxucu qəlbinə Vətən sevgisi sızır, yurda məhəbbət axır. Vətəni bir şair ürəyinə bənzədən müəllif yazır:

**Vətən! Vətən, deyən şair ürəyi,**
**Vətənin ən böyük ərazisidir.**

Nümunə gətirdiyim bu şeirlərin hər biri qəlbimə bir cür yatdı. Bu şeirləri bir anlıq "Vətən" adlı böyük ölçülü xalçanın ayrı-ayrı ilmələrinə, rənglərinə və təsvirlərinə bənzətdim. Bu ilmələri, rəngləri birləşdirib həm iri, həm də gözəllikdə tayı-bərabəri olmayan, qeyri-adi bir xalça toxumağa çalışdım. İnanıram ki, yazıya toxuduğum misralardakı bu təsvirlər, bu rənglər, bu ifadələr, bu bənzətmələr oxuculara xoş təsir bağışlayacaq, həmişəlik olaraq onların yaddaşlarına hopub orada özünə əbədi yuva quracaq. Bu şeirlərin bəziləri hisslərimizi coşdurur, bəziləri bizi düşündürür, bəziləri qəlbimizi alovlandırır, bəziləri isə bizi gündəlik qayğılardan ayırıb əlçatmaz, ünyetməz aləmə aparır. O aləmə ki, orada Vətən var! O aləmə ki, orada Vətən sevgisi var! O aləmə ki, orada mübarizə var, qəhrəmanlıq var, əbədilik var! Belə xoş anlarda sözün, şeirin, fikrin qüdrəti qollarımızdakı gücümüzü, ürəyimizdəki Vətən sevgisini daha da artırır.

Ümid edirəm ki, daim artan Vətən sevgisi sonda Böyük Qələbəyə yol açacaq. Gələcək daha parlaq, daha işıqlı olacaq. Onda ürəyimizdə qövr edən bütün arzu və istəklərimiz rəngbərəng çiçəklər açacaq.

**Vahid MƏHƏRRƏMOV,**
**"Azərbaycan Ordusu"**

# Xəbərlər:
# hadisələr, faktlar

## İraqın şimalında daha bir təhlükəli terrorçu məhv edilib




Türkiyənin Milli Təhlükəsizlik Təşkilatı (MİT) İraqın Zap bölgəsində PKK terror qruplaşmasına qarşı daha bir uğurlu antiterror əməliyyatı keçirib.

Bu əməliyyat nəticəsində PKK-nın Zap bölgəsindəki terrorçulara rəhbərlik edən Fadıl Ekinci zərərsizləşdirilib. Bir sıra ağır cinayətlərdə ittiham olunan terrorçu Türkiyə Daxili İşlər Nazirliyi tərəfindən axtarışda olub. Onun ələ keçirilməsi üçün pul ayrılmışdı.

## Kreml: Qələbə paradı mütləq keçiriləcək



Böyük Vətən Müharibəsində Qələbənin 75-ci ildönümü münasibətilə parad və bayram şənlikləri mütləq keçiriləcək.

Bu barədə jurnalistlərə Kremlin mətbuat katibi Dmitri Peskov məlumat verib. O deyib ki, Qələbə paradının, "Ölümsüz alay" aksiyasının başqa vaxta keçirilməsi barədə hələlik heç bir qərar qəbul edilməyib. Qəti qərarın koronavirusla bağlı vəziyyət nəzərə alınmaqla qəbul ediləcəyini diqqətə çatdıran D.Peskovun sözlərinə görə, hazırda müxtəlif variantlar nəzərdən keçirilir.

Tədbirlərin mayın 9-da və ya başqa vaxta keçiriləcəyi barədə dəqiq məlumatın olmadığını qeyd edən Kremlin mətbuat katibi vurğulayıb ki, Qələbə paradının və Qələbə Günü münasibətilə şənliklərin keçiriləcəyinə heç kimin şübhəsi olmasın.

## Ceyms Makferson ABŞ Hərbi Dəniz Qüvvələri nazirinin səlahiyyətlərini icra edəcək



Pentaqonun rəhbəri Mark Esper ABŞ Hərbi Dəniz Qüvvələri nazirinin səlahiyyətlərinin icraçısı Tomas Modlinin istefasını qəbul edib və Quru Qoşunları nazirinin müavini Ceyms Makfersonu onun yerinə təyin edib.

Bu barədə Mark Esper "Twitter" səhifəsində yazıb. O, ABŞ Prezidentinin razılığı ilə Ceyms Makfersonu Hərbi Dəniz Qüvvələri nazirinin səlahiyyətlərinin icraçısı təyin etdiyini bildirib. Tomas Modli "Teodor Ruzvelt" təyyarədaşıyan gəmisinin sabiq kapitanı Brett Krozyenin ünvanına kobud fikir söylədikdən sonra istefa ərizəsi yazıb. Daha əvvəl Brett Krozyenin yazılı bəyanatında gəmidə koronavirus infeksiyasının olduğu bildirilmişdi.

## Ukrayna Silahlı Qüvvələrində koronavirusdan ilk ölüm halı qeydə alınıb



Ukrayna Silahlı Qüvvələrində koronavirusdan ilk ölüm faktı qeydə alınıb. Bu barədə Ukrayna Silahlı Qüvvələrinin mətbuat xidməti məlumat yayıb.

Koronavirusa yoluxan qadın hərbçi İvano-Frankovsk şəhərində hərbi hissələrin birində xidmət göstərib. Martın 20-dən xəstəxanaya yerləşdirilib, aprelin 6-da isə dünyasını dəyişib.

Qeyd edək ki, Ukrayna Silahlı Qüvvələrində 4 hərbçidə koronavirusa yoluxma aşkarlanıb.

**AZƏRTAC-ın materialları əsasında**

Müddətdən artıq həqiqi hərbi xidmət hərbi qulluqçusu çavuş Əsədov Vüqar Zalış oğluna verilmiş şəxsi vəsiqə itdiyi üçün etibarsız sayılır.

**Baş redaktor**
polkovnik-leytenant
İlham BEHBUDOV

**Telefonlar**
Baş redaktor: (012) 510-71-97 (faks);
Baş redaktorun müavini: (012) 510-64-27;
Məsul katib: (012) 510-71-98;
Məktublar şöbəsi: (012) 510-64-28.

**Ünvanımız**
Bakı şəhəri, akademik Şəfaət Mehdiyev küçəsi 144, "Qızıl Şərq" hərbi şəhərciyi

**Növbətçi**
baş leytenant
Mahmud MÖHBALIYEV

**Qəzetin hesabı**
Nərimanov Rayon Xəzinədarlığı
Kod: 200189
VÖEN: 1500428611

Qəzet həftədə iki dəfə (III-VI günlər) nəşr olunur. "Azərbaycan Ordusu" qəzeti kompüter mərkəzində səhifələnərək "Hərbi nəşriyyat"ın mətbəəsində hazır diapozitivlərdən çap olunur. Əlyazmalara rəy verilmir, təqdim edilən yazılar müəllifə qaytarılmır.
Qəzeti mod.gov.az saytından oxuya bilərsiniz.

Lisenziya № 361
Sifariş № 179
Nüsxə 3900